

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 133 (21.285)

9 iyul 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni istehsal müəssisələrinin yaradılması davam etdirilir

*Naxçıvan Muxtar Respublikasının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir.*

Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 sentyabr 2014-cü il tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və 31 yanvar 2014-cü il tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram” təsdiq edilmişdir.

Sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə hər bir rayonun istehsal potensialından səmərəli istifadə etməklə sahibkarlığın inkişaf etdirilməsi mühüm şərtdir.

Bu baxımdan adıçəkilən dövlət proqramının icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsal edən yeni müəssisələrin yaradılmasında, əhalinin məşğulluq səviyyəsinin və gəlirlərinin artırılması məqsədilə iş yerlərinin açılmasında müstəsna rol oynayır.

Məlum olduğu kimi, sahibkarlığın, özəl sektorun inkişafına normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləşdirmək, sosial məsələlərin həllinə nail olmaq mümkün deyil. Bu məqsədlə muxtar respublikada iqtisadi sahədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini məhz sahibkarlığın inkişafı təşkil edir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyəti bərpa edilir və ya genişləndirilir.

İstehsal potensialının gücləndirilməsi istiqamətində 2015-ci ilin ilk 6 ayı ərzində muxtar respublikada ət qovurması, süd məhsullarının emalı, lavaş istehsalı sahələri, forel balıqçılıq təsərrüfatı, istixana kompleksləri və xidmət olmaqla, 18 sahənin yaradılması başa çatdırılmışdır. Yaradılmış istehsal və xidmət sahələri hesabına 89 yeni iş yeri açılmışdır.

Silikon yorğan-döşək və yataq bazası, müxtəlif ölçü və formada qızıl-gümüş zinət əşyaları, medal və döş nişanları, elektrik açarları, alçıpan örtüklər, gips, əhəng, beton istehsalı, unlu-qənnadı məmulatlar, lavaş istehsalı, bərk pendir istehsalı, şirniyyat, kompot, mürəbbə və turşu istehsalı, qarğıdalı, toxumçuluq, heyvandarlıq, keçiçilik, quşçuluq, arıçılıq təsərrüfatları, istixana komplekləri və xidmət olmaqla, 35 sahənin yaradılması istiqamətində isə işlər davam etdirilməkdədir.

2015-ci ilin 6 ayı ərzində yaradılması və ya fəaliyyətinin genişləndirilməsi başa çatdırılan istehsal və xidmət sahələri Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərini və kəndləri də əhatə edir. Şərur rayonunun İbadulla, Dəmirçi, Oğlanqala, Qarxun, Məmmədsabir, Babək rayonunun Nehrəm, Ordubad rayonunun Əylis kəndlərində, Kəngərli rayonunun Qıvraq qəsəbəsi və Qarabağlar kəndində, Sədərək rayonunun Sədərək kəndində istehsal sahələrinin yaradılması başa çatdırılmışdır.

Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 119 növdə, 507 çeşiddə ərzaq, 235 növdə, 588 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 354 növdə, 1095 çeşiddə məhsul istehsal olunur. Müəssisələr 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq olmaqla, cəmi 336 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödəmək gücünə malikdir.

Bir sözlə, dövlət proqramında qeyd olunan istiqamətdə həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında nəzərdə tutulan məqsədlərə nail olunmasında, sahibkarlığın inkişafında, sosial problemlərin həllində və əhalinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*İyulun 8-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Sədərək Rayon İcra Hakimiyyəti ilə birgə rayonda sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr barədə yığıncaq keçirib.*

## Sədərək rayonunda sığorta fəaliyyəti genişləndirilir

Tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq sığorta işinin əhəmiyyətindən danışıb.

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Baş direktor sığorta olunmağın vacibliyindən danışaraq sığortanın inkişaf edən cəmiyyətin tələbi olduğunu bildirib. Qeyd olunub ki, sığorta hər hansı gözlənilməz hadisə və ya qəzadan zərərçəkən insanların maddi vəziyyətini bərpa etmək, zərərləri aradan qaldırmaq üçün bir vasitədir.

Çıxışda tətbiq olunan icbari və könüllü sığortaların əhəmiyyətindən bəhs olunub və bu istiqamətdə Sədərək rayonunda görülmüş işlərdən danışılıb.

Vurğulanıb ki, görülmüş işlərlə bərabər, Sədərək rayonunda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bəzi vətəndaşlar tərəfindən sığorta müqavilələri bağlanılmayıb.

Bildirilib ki, 2014-cü ildə Sədərək kəndindəki kommersiya obyektində baş vermiş yanğınla əlaqədar sahibkarlara 8 min 640 manat məbləğində sığorta ödənişləri verilib. Həmçinin rayonda avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortası, ev əmlakının sığortası, fərdi qəza sığortası üzrə də zərərçəkənlərə müxtəlif həcmdə sığorta ödənişləri verilib. Qarşıda duran əsas vəzifə ondan ibarətdir ki, bütün sığorta növlərini inkişaf etdirməklə hər bir hüquqi və fiziki şəxs üçün gözlənilməz hadisələrə qarşı etibarlı sığorta təminatı yaradılsın.

Tədbirdə Sədərək Rayon Dövlət Sığorta Agentliyinin direktoru, Naxçıvan Muxtar Respublikası Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Sədərək Rayon Şöbəsinin və Sədərək Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin rəisləri və Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndə görülmüş işlər barəsində məlumat veriblər.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vurub.

**Əli CABBAROV**

## Muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına nail olunmuşdur

*Muxtar respublikada yol-nəqliyyat infrastrukturu genişləndirilir, nəqliyyat sektorunun ayrı-ayrı sahələrinin inkişafı təmin edilir. Bu sahədə görülən işlər dəmir yolu nəqliyyatı sistemində də müasir tələblər səviyyəsində qurulmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı” da bu sahənin hərtərəfli inkişafına təkan vermişdir. Muxtar respublikanın dəmir yolu nəqliyyatı sisteminin inkişafı, yol infrastrukturunun genişləndirilməsi və xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində ardıcıl tədbirlər görülür.*

Proqramda nəzərdə tutulan daşınma təsərrüfatı üzrə tədbirlərin böyük əksəriyyəti yerinə yetirilmişdir. Belə ki, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası 2012-ci ildə yenidənqurmadan sonra istifadəyə verilmiş, binada müasir maddi-texniki baza və müasir iş şəraiti yaradılmışdır. Daşımaların səmərəli təşkili məqsədilə Vəlidağ stansiyasında yükləmə, Qarabörk stansiyasında isə yükboşaltma meydançaları da yaradılmışdır. Həmçinin Naxçıvan stansiyasında əlavə 220 paqonometr uzunluğunda yeni dəmir yolu xətti çəkilmişdir ki, bu da “Gəmiqaya Daş Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinə xammalın daşınması işini xeyli asanlaşdırmışdır.

Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Culfa sərhəd-keçid stansiyası ərazisində də yenidənqurma işləri aparılmış, kontakt şəbəkələri, elektrik və rabitə sistemləri yenilənmiş, Culfa dartı yarımstansiyasının binası əsaslı təmir olunmuşdur. 2012-ci ildə Culfa lokomotiv deposu, Lokomotiv briqadalarının idarəetmə mərkəzi, yanacaq və material anbarı binaları, 2013-cü ildə Naxçıvan yanacaq anbarının qarajı və inzibati binası, 2014-cü il dekabrın 26-da isə İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Culfa, Qarğalıq, Qıvraq və Naxçıvan dartı yarımstansiyalarında aparılan təmir işləri başa çatdırılmışdır. Ordubad dəmiryol sərnişin vağzalı binasının və idarəetmə mərkəzinin tikintisi isə hazırda davam etdirilir.

Hərəkətin təhlükəsizliyinin təmin olunması, yolların əsaslı təmiri və yenidən qurulması işləri də proqramda icrası vacib məsələlər sırasında yer almışdır. Ötən müddətdə qarşıya qoyulan bu vəzifələrin də uğurla icrasına nail olunmuş, yol təsərrüfatı müasir tələblər səviyyəsində qurulmuş, körpü və keçidlər təmir olunmuş, yeni dəmir yolu keçidləri və istinad divarları inşa olunmuşdur. 2011-2015-ci illər ərzində aparılan yenidənqurma və təmir işləri zamanı 20 mindən çox şpal, 5 dəst yoldəyişdirici tir yenisi ilə əvəz edilmişdir. Yuyulmaya məruz qalan ərazilərdə sahilbərkitmə işlərinin aparılması da diqqət mərkəzində saxlanılmış, bu işlərdə maşın-mexanizmlərin gücündən səmərəli istifadə olunmuşdur. Bəhs olunan dövrdə yeni kran qurğulu avtomobilin, ekskavator və özüboşaldan yük avtomobilinin, müasirtipli yolölçən-defektoskop aparatının alınıb gətirilməsi təmir-tikinti işlərinin intensivliyini xeyli artırmışdır.

Proqramda lokomotiv parkının yeniləşdirilməsi, teplovozların istismar müddətinin artırılması və təhlükəsiz istismarının təmin edilməsi, lokomotiv və vaqon təsərrüfatının maddi-texniki bazasının və iş şəraitinin yaxşılaşdırılması da nəzərdə tutulmuşdur. Bu vəzifələrin icrası məqsədilə lokomotivlərin və vaqonların əsaslı təmiri ilə əlaqədar lazımi ehtiyat hissələri alınmış, təkər cütləri Bakı lokomotiv deposunda təmir edilərək istismara verilmişdir. Təkər cütlərinin dəyişdirilməsi üçün xüsusi qurğu alınıb gətirilmiş və texniki qulluq işlərinin keyfiyyət dərəcəsini xeyli artırmışdır. Bu müddət ərzində 2 sərnişin vaqonunun əsaslı, 8 sərnişin vaqonunun isə depo təmiri başa çatdırılmış, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldilmişdir.

İdarəetmə, rabitə və telekommunikasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması, elektrik təchizatının yaxşılaşdırılması qatarların hərəkətinin təhlükəsizliyinin təmin edilməsində mühüm amildir. Bu istiqamətdə işlərin icrası da diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan dəmir yolunun Salamməlik-Sədərək hissəsində optikli rabitə xətti çəkilmiş, mövcud rabitə avadanlıqları müasir texnologiyalara əsaslanan simsiz rabitə şəbəkəsinə qoşulmuşdur. Bu tədbirlərin davamı olaraq hazırda Ordubad, Culfa, Naxçıvan, Şahtaxtı və Şərur stansiyalarında elektrik mərkəzləşdirmə avadanlıqları müasirləşdirilir, rele və bloklar yenisi ilə əvəz olunur.



Həyata keçirilən tədbirlər dəmir yollarında və xidməti ərazilərdə baş verə biləcək fövqəladə və qəza hallarının vaxtında aradan qaldırılmasına imkan verir.

Bu gün muxtar respublikada dəmir yolu nəqliyyatı sisteminin idarə olunması, eləcə də yenidənqurma işlərinin həyata keçirilməsi üçün ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə müasir tədris bazası formalaşdırılmışdır. Naxçıvan Dövlət Universitetində Dəmir yolu ixtisası üzrə auditoriya yaradılmış və lazımi əyani dərs vəsaitləri ilə təmin olunmuşdur. Universitetin Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisası üzrə 2-ci kursu bitirmiş 9 tələbə istehsalatda əmək fəaliyyətini, 5 tələbə isə istehsalat təcrübəsini uğurla başa vurmuşdur. Naxçıvan Dövlət Texniki Kollecində isə Nəqliyyatda daşımaların təşkili ixtisası üzrə kadr hazırlığı həyata keçirilir. Ötən dövrdə kollecin maddi-texniki bazası genişləndirilmiş, tədrisin keyfiyyəti yaxşılaşdırılmışdır. Dəmir yolu sahəsində çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması da diqqət mərkəzində saxlanılmış, 2011-2015-ci illər ərzində 14 dəmiryolçu Naxçıvan Regional Peşə Tədris Mərkəzində orta ixtisas peşə kursunu müvəffəqiyyətlə bitirmişdir.

Hazırda icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı” bu sahədə inkişafın əsas istiqamətlərini müəyyənləşdirən mühüm dövlət sənədidir. Proqramın təsdiq olunmasından ötən müddət ərzində nəzərdə tutulan tədbirlər uğurla yerinə yetirilmişdir. Bu istiqamətdə işlərin davam etdirilməsi dəmir yolu nəqliyyatı sisteminin sürətli inkişafına və əhaliyə göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Sərəncamına əsasən, 9 iyul Azərbaycan Diplomatlarının Peşə Bayramı Günü elan edilmişdir.*

**9 iyul Azərbaycan diplomatlarının peşə bayramıdır**

# Diplomatiya xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən və ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra digər sahələrdə olduğu kimi, diplomatiya sahəsində də mühüm uğurlar əldə olunmuşdur. Ümummilli liderin rəhbərliyi ilə ölkəmizin tarazlaşdırılmış xarici siyasətinin həyata keçirilməsi Azərbaycanı beynəlxalq birliyin nüfuzlu üzvünə çevirmişdir. Ulu öndərin təşəbbüsü və rəhbərliyi altında elmi və milli əsaslara, dərindən düşünülmüş konsepsiyaya söykənən xarici siyasət prinsipləri bərqərar olmuş, bu sahənin inkişafına xidmət edən mühüm qərarlar qəbul edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin xarici siyasətinin mahiyyət və vəzifələrini müəyyənləşdirərək demişdir: ***"Xarici siyasət, ilk növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".***

Yeni siyasi kursun uğurla həyata keçirilməsi tezliklə öz bəhrəsini vermiş, dünyanın müxtəlif dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlər yaradılmış, Azərbaycan həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır. Bu dövrdən etibarən Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili aparılmış və buna uyğun olaraq xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edilmişdir. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, xarici ölkələrlə əlaqələrinin yaxın dövr üçün prioritetləri, əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə ötən illər ərzində bütün sahələrdə olduğu kimi, milli diplomatiya sahəsində də ciddi və əhəmiyyətli uğurlara imza atılmışdır. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda BMT-nin Təhlükəsizlik Şurası və digər strukturları, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İnkişaf Naminə Təşkilat, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığını davam etdirir. Bir çox hallarda məhz Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində və səmərəliliyin artırılmasında mühüm rol oynamışdır.

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bu gün diqqət mərkəzindədir. Ermənistanın işğalçılıq siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəlikdə duran əsas məsələdir. Dövlət başçısı bu məsələnin vacibliyinə diqqət çəkərək demişdir: ***"Hesab edirəm ki, diplomatların fəaliyyəti, ilk növbədə, bu istiqamətə yönəlməlidir. Çünki hələ ki, geniş dünya ictimaiyyəti Qarabağla bağlı həqiqətləri bilmir. Erməni lobbisi çalışır ki, faktları dünya ictimaiyyətinə təhrif edilmiş şəkildə çatdırsın. Biz isə çalışmalıyıq ki, real faktları dünya ictimaiyyətinə çatdıraq".*** Bu gün Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi, aparılmış etnik təmizləmə siyasəti nəticəsində doğma yurd-yuvalarından qovulmuş soydaşlarımızın geri qayıtması üçün zəruri diplomatik və hüquqi əsaslar yaradılır. Son illər Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması və siyasi qiymət verilməsi istiqamətində də mühüm işlər görülür. Artıq Kolumbiya, Çexiya, Rumıniya, Serbiya, Peru, Panama, Pakistan, Meksika, İordaniya, Bosniya və Herseqovina parlamentləri, Amerika Birləşmiş Ştatlarının 15 ştatı, Sudan Respublikasının parlamenti Xocalı soyqırımını tanımışdır. Həmçinin ötən il yanvarın 24-də Honduras Respublikasının Prezidenti və Xarici İşlər naziri tərəfindən Xocalı soyqırımının tanınması barəsində qərar təsdiq edilmişdir. Bütün bunlar Azərbaycan dövlətinin düzgün xarici siyasəti nəticəsində mümkün olmuşdur.

Ölkəmizin xarici siyasət kursunun vacib istiqamətlərindən biri də xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiəsidir. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə səfərlərinin asanlaşdırılması və konsulluq sahəsində əməkdaşlığın genişləndirilməsi çərçivəsində işlər davam etdirilir. Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 58 səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 baş konsulluğu, 9 təmsilçilik ofisi və 7 fəxri konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 58 dövlətin səfirliyi, 4 baş konsulluq, 10 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da tarixən diplomatik əlaqələrin mühüm ənənələri formalaşdırılmışdır. X əsrdə Naxçıvan şahlığının, XII əsrdə qüdrətli Atabəylər dövlətinin, XVIII əsrdə Naxçıvan xanlığının, 1918-ci ildə Araz-Türk Respublikasının paytaxtı olmuş beş minillik şəhər mədəniyyətinə malik Naxçıvan Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasına böyük töhfələr vermişdir. Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, Kalbalı xan isə XVIII əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır. Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının Xarici İşlər naziri Bəhram xan Naxçıvanski, Naxçıvan SSR-in Təbrizdəki ilk konsulu – mühacir diplomat İsmayıl bəy Camalbəyov, mahir diplomat bacarığı ilə Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanmasında mühüm xidmətləri olan Behbud ağa Şahtaxtinski, İbrahim Əbilov və Rza Təhmasib kimi görkəmli diplomatlar Naxçıvanın diplomatiya tarixində silinməz izlər buraxmış şəxslərdir.

Naxçıvan Muxtar Respublikasına səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır, həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərə və onların muxtar qurumlarına nümunə kimi göstərilir. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, 2012-ci ildə Azərbaycan, Türkiyə və İran Xarici İşlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, 2014-cü ildə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi muxtar respublikanın xarici siyasət müstəvisindəki əhəmiyyətinin mühüm göstəricisi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Gürcüstanın Acarıstan Muxtar Respublikasına, İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan vilayətlərinə rəsmi və işgüzar səfərləri Azərbaycan Respublikasının bu ölkələrlə əlaqələrinin inkişafına mühüm töhfələr vermişdir.

Bu gün Naxçıvan Muxtar Respublikası özünün muxtar dövlət statusuna əsasən, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində və Avropa Birliyinin Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransında (CORLEAP) da uğurla təmsil olunur. Bu qurumlar vasitəsilə qitənin ayrı-ayrı regionları, muxtariyyətləri və federal subyektləri ilə birbaşa əlaqələr yaradan və səmərəli əməkdaşlıq edən Naxçıvan Muxtar Respublikası həm də Avropa siyasətinin formalaşması və həyata keçirilməsi prosesində yaxından iştirak edir. 2012-ci ildə Fransanın Strasburq şəhərində Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2005-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır. İdarə yarandığı gündən öz səlahiyyətləri daxilində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərdə layiqincə təmsil edir. Naxçıvan Muxtar Respublikasında dövlət protokolunun həyata keçirilməsini təmin edən idarə muxtar respublikada fəaliyyət göstərən xarici dövlətlərin diplomatik nümayəndəliklərinin, eləcə də Naxçıvana səfər edən xarici nümayəndə heyətlərinin dövlət hakimiyyəti orqanları ilə münasibətlərini və fəaliyyətlərini əlaqələndirir, bu əlaqələrdə daim iştirak edir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin işinin səmərəli təşkili üçün kadrların seçilməsi və onların peşəkarlıq qabiliyyətlərinin yüksəldilməsinə də xüsusi diqqət yetirilir. İdarədə fəaliyyət göstərən diplomatlar mütəmadi olaraq Azərbaycan Diplomatik Akademiyasında və bir çox xarici ölkələrdə təşkil olunmuş diplomatik kurslarda iştirak edir, təcrübə, bilik və bacarıqlarını artırırlar. Təkcə 2015-ci ildə əməkdaşlardan 7-si Azərbaycan Diplomatik Akademiyasının təlim kurslarında, 1-i Pakistan Diplomatik Akademiyasının, 1-i isə Çin Xalq Respublikasının Pekin Beynəlxalq İnstitutunun ixtisasartırma kursunda iştirak etmişdir. Ötən dövr ərzində idarədən Azərbaycanın xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinə 15 əməkdaş ezam olunmuşdur. Hazırda onlar ölkəmizin Bolqarıstan, Malayziya, Özbəkistan, Meksika, Türkiyə, Hindistandakı səfirliklərində, eləcə də Təbriz, Qars və İstanbul şəhərlərindəki Baş konsulluqlarında Azərbaycan Respublikasının maraqlarını layiqincə müdafiə edirlər. Bundan başqa, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin Sədərək, Culfa və Şahtaxtıdakı, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanının sərhəd-nəzarət buraxılış məntəqələrində viza sektorları fəaliyyət göstərir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***"Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar..."*** *Bu fikirləri əldə rəhbər tutan idarənin kollektivi bundan sonra da peşəkar kadr kimi yetişəcək, ölkəmizin milli və siyasi maraqlarının qorunmasında yorulmadan fəaliyyət göstərəcəkdir.*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti**

# Gənclərin hərbi xidmətə yola salınması davam edir

***İyulun 8-də Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

"Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 may 2015-ci il tarixli Sərəncamına əsasən, hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə idarənin Çağırış bölməsinin rəisi, mayor Mirzə Rəhimov açıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Naxçıvan Şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək bildiriblər ki, Milli Ordumuzda xidmət etmək Vətənə xidmətdir. Milli Ordumuz Azərbaycanın müstəqilliyinin, onun təhlükəsizliyinin qoruyucusudur. Buna görə də bugünkü gənclərimiz daha yaxşı xidmət etməli, xidmət dövrü hərbi texnikanın sirlərinə daha yaxşı yiyələnməli və Ali Baş Komandanın əmri olarsa, istənilən anda düşmənə layiqli cavab verməlidirlər.



Valideyn Talıb Babayev övladını hərbi xidmətə yola salması ilə fəxr etdiyini bildirib, çağırışçı gənclərə uğurlar arzulayıb.

Çağırışçılar adından çıxış edən Vüsal Məmmədov Vətənin keşiyində ayıq-sayıq dayanacaqlarına, komandir və rəislər tərəfindən verilən əmr və tapşırıqları vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev orduma göstərilən dövlət qayğısından danışıb, hərbi xidmətə yola salınan bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Babək rayonunda da çağırışçıların hərbi xidmətə yola salınması mərasimi keçirilib.

**Xəbərlər şöbəsi**

*Azərbaycan milli mətbuatı — 140*

# “Mətbuat: tarix və müasirlik” mövzusunda dəyirmi masa təşkil olunub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il iyunun 2-də “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər Planında “Mətbuat: tarix və müasirlik” mövzusunda dəyirmi masa müzakirələrinin təşkil olunması da nəzərdə tutulmuşdur.

İyulun 8-də Şahbuz Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan “Oğuz səsi” qəzetinin redaksiyasında bu mövzuda dəyirmi masa keçirilmişdir. Tədbirdə Naxçıvan Mətbuat Şurasının üzvləri, şəhər və rayon qəzetlərinin redaktorları, “Oğuz səsi” qəzetinin əməkdaşları iştirak etmişlər.

Tədbirdə Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov “Azərbaycan milli mətbuatının keçdiyi yol”, “Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov “Mətbuat: tarix və müasirlik” və “Oğuz səsi” qəzetinin redaktoru Şəhla Nəbiyeva “Muxtar respublikada mətbuata dövlət qayğısı” mövzularında çıxışlar etmişlər. Çıxışlarda bildirilmişdir ki, görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan “Əkinçi” qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı xalqımızın maarifləndirilməsində mühüm rol oynamışdır. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, milli-mənəvi dəyərlərimizin qorunmasına, mədəniyyətin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr vermişdir.

Qeyd olunmuşdur ki, Azərbaycanda mətbuatın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlunun ölkəmizə rəhbərlik etdiyi dövrlərdə mətbuat orqanlarının müstəqil fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Bu gün ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən kütləvi informasiya vasitələrinin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Müxtəlif vaxtlarda imzalanan Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında sərəncamlar, eləcə də 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında” Sərəncam ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına yeni imkanlar açmışdır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli “Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında” Fərmanı da məhz bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2005 və 2010-cu illərdə Azərbaycan milli mətbuatının yaradılmasının 130 və 135 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi mətbuata göstərilən böyük qayğının ifadəsidir.

Bildirilmişdir ki, kütləvi informasiya vasitələrinin inkişafına göstərilən böyük diqqət və qayğıdan Naxçıvan mediasına da xeyli pay düşmüşdür. Mətbuata göstərilən qayğıdan Azərbaycanın qocaman mətbuat orqanlarından biri olan “Şərq qapısı” qəzeti, eləcə də muxtar respublikada nəşr olunan şəhər və rayon qəzetləri də bəhrələnmiş, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin orqanı olan “Şərq qapısı” qəzeti redaksiyası və Ali Məclisin “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmiş, əməkdaşlar üçün müasir iş şəraiti yaradılmış, qəzetlərin rəngli nəşrinə başlanmışdır. Bütün bunlarla yanaşı, qəzet əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi də daim diqqət mərkəzində saxlanılır. Son illər jurnalistlərin əməkhaqları dəfələrlə artırılmış, redaksiyalara yeni xidməti avtomobillər, müasir texniki avadanlıqlar verilmişdir.

Vurğulanmışdır ki, mətbuata göstərilən dövlət qayğısından “Oğuz səsi” qəzeti də yararlanmış, son illərdə qəzet redaksiyasında maddi-texniki baza yenilənmiş, qəzet əməkdaşlarının fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Bununla yanaşı, redaksiyaya gənc kadrların cəlb edilməsi də diqqət mərkəzində saxlanılmış, əməkdaşların peşəkarlığının yüksəldilməsi istiqamətində tədbirlər görülmüşdür.

“Oğuz səsi” qəzetinin keçmiş əməkdaşlarından Şəmsəddin Kərimov, Çərkəz Məhərrəmov və Xanlar Səfərəliyev çıxış edərək Azərbaycan milli mətbuatının keçdiyi yoldan danışmış, çalışdıqları dövrlə bu günü müqayisə edərək muxtar respublikada mətbuata göstərilən dövlət qayğısının nümunə gücündə olduğunu bildirmişlər.

Sonda dəyirmi masa iştirakçıları Naxçıvanda mətbuatın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, “Oğuz səsi” qəzetində yaradıcılıq axtarışlarının artırılması və qarşıda duran vəzifələr mövzusunda fikir mübadiləsi aparmışlar.

**Səbuhi HƏSƏNOV**

“Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq

## Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi münasibətilə konsert

edilmiş Tədbirlər Planına uyğun olaraq, kollecin musiqi kollektivlərinin muxtar respublikanın şəhər və rayonlarında konsertlərinin keçirilməsi davam etdirilir. Dünən kollecin musiqi kollektivləri Culfa Rayon Mədəniyyət Evində konsert proqramı ilə çıxış ediblər.

Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov konsert başlamazdan əvvəl çıxış edərək “Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamın Naxçıvan musiqiçilərinin böyük sevincinə səbəb olduğunu bildirib. Qeyd olunub ki, hazırda kollecdə 552 tələbə 11 ixtisas üzrə təhsil alır. Bu tələbələrin təlim-tərbiyəsi ilə 181 müəllim və konsertmeyster məşğul olur. 1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Kollecin məzunlarından 420-yə yaxını Culfa rayonundandır. Hazırda kollecdə Culfa rayonundan 43 tələbə təhsil alır.

Sonra konsert olub. Qədim alətlər və “Dilruba” muğam ansambllarının, estrada orkestrinin və “Naxçıvanqala” ritm qrupunun müşayiəti ilə səsləndirilən mahnılar və musiqi nömrələri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

## Rəsm çəkmək texnikasına dair praktik məşğələ

***Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinin tədbirlər planına uyğun olaraq, Babək Rayon Uşaq yaradıcılıq mərkəzində rəssamlıq sənəti və rəsm çəkmək texnikasına dair praktik məşğələ keçirilib.***

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən məşğələdə Babək rayonunun ümumtəhsil məktəblərində fəaliyyət göstərən rəsm dərnəklərinin üzvləri iştirak ediblər.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək şagirdlərə birliyin fəaliyyəti, həmçinin Naxçıvanın istedadlı rəssamları barədə ətraflı məlumat verib. Təsviri sənətin bir növü olan qrafika barədə danışan Ülviyyə Həmzəyeva bildirib ki, qrafikaya müxtəlif texniki üsullarla işlənmiş sənət əsərləri daxildir. Azərbaycan incəsənətinin məhsuldar sənət növləri arasında qrafika özünəməxsus yer tutur. Onun dəzgah, kitab, səhnə qrafikası və plakat kimi başlıca növləri, əsasən, 1920-ci ildən sonra təşəkkül tapmasına baxmayaraq, ötən illər ərzində maraqlı inkişaf yolu keçib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Əlövsət Allahverdiyev plakat janrı barədə şagirdləri məlumatlandıraraq deyib ki, dünyada populyar olan bu janr təsviri incəsənətin geniş yayılmış növlərindən biridir. Onun vasitəsilə bütün sahələrdə ideoloji təbliğat və maarifləndirmə işi aparmaq mümkündür. Belə ki, rəssam plakat vasitəsilə insanların görə bilmədiklərini diqqətə çatdırmaq imkanı qazanır. Bu janr ilə cəmiyyətdə həm maarifçilik, həm də mənəvi dəyərlərin qorunması üçün önəmli işlər görmək mümkündür.

Daha sonra plakat janrında rəsmlərin çəkilməsi əyani izah olunub.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# “Şərq qapısı” qəzeti Böyük Vətən müharibəsi dövründə və sonra

*(Əvvəli qəzetimizin 4 iyul 2015-ci il tarixli sayında)*

***“Şərq qapısı” qəzetinin müharibə dövründəki fəaliyyətindən bəhs edərkən qəzetə rəhbərlik etmiş redaktorların həmin illərdəki çətin və məsuliyyətli işindən söz açmamaq mümkün deyil. “Şərq qapısı” qəzetinin 50 illiyi münasibətilə çap olunmuş 1 yanvar 1972-ci il (№1) tarixli xüsusi buraxılışında müharibə dövründə qəzetə bir müddət rəhbərlik etmiş Məmmədəli Tarverdiyevin təbrik məktubunda 1941-1945-ci illərdə qəzetin keçdiyi ağır və məşəqqətli günlər xatırlanır, hətta ən çətin anlarda belə ruhdan düşmədiklərindən, “Hər şey Vətən üçün!” şüarını əsas tutaraq insanları Vətən uğrunda mübarizəyə səslədiklərindən bəhs olunur.***

Məqalədən aydın olur ki, “Şərq qapısı” qəzetinin müharibə dövründə cəbhədə vuruşan və ad-san qazanan naxçıvanlı döyüşçülərdən bəhs edən xüsusi nömrəsi çapdan çıxmışdır. Həmin nömrədə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev, Abbas Quliyev, polkovnik Akim Abbasov, kapitan Həmzə İbrahimov, həkimlərdən Əbdüləli Tahirov, Surə Allahverdiyeva, tibb bacısı Firuş Məmmədəliyeva, sıravi əsgər Allahverdi Kərimov və başqalarının düşmənlə mübarizəsini əks etdirən məqalələr öz əksini tapmışdır. Yüksək səviyyədə hazırlanan bu nömrə paytaxt qəzetlərinin də diqqətini cəlb etmiş və “Kommunist” qəzeti “Cəbhəni sevən, cəbhəçini sevdirən qəzet” başlığı altında həmin nömrəyə müsbət xülasə vermişdir.

Həmin nömrədə dərc olunmuş Əli Mirzəyevin “İnsan, dost, həyat” məqaləsində 1941-1945-ci illər müharibəsində həlak olmuş redaktorlardan bəhs edilir. Müharibədə yüksək şücaət göstərərək həlak olmuş redaktorlardan Hüseyn Ağrılı, Xəlil Əminov, Musa İsmayılovu da yad edən müəllif bu redaktorların redaksiyaya rəhbərlik etdikləri dövrlərdəki xatirələrdən bəhs edərək Hüseyn Ağrılının müharibəyə getməzdən əvvəl qəzetin kollektivinə dediyi sözləri xatırlayır: “Mən könüllü olaraq cəbhəyə gedirəm. Xahişim budur ki, qəzetin yaxşı çıxarılmasına diqqət edəsiniz. Bütün qüvvələri düşmən üzərində qələbə çalınmasına yönəldin”.

Bundan əlavə, Böyük Vətən müharibəsi illərində yazılan bir çox mətbuat xülasələrində “Şərq qapısı” qəzetinin müharibə dövründəki fəaliyyətinə yüksək qiymət verilmişdir. Azərbaycan Baş Mətbuat Müdirliyinin xülasəsində deyilir: “Şərq qapısı” Naxçıvan MSSR-də xalq təsərrüfatının, mədəni-maarif cəbhəsinin əsas sahələrində aparılan işləri, faşist Almaniyası ilə sovet xalqının apardığı Böyük Vətən müharibəsinin gedişatını, arxanın cəbhə ilə sıx əlaqəsini, Naxçıvan zəhmətkeşlərinin fədakar əməyini, cəbhə epizodlarını, ayrı-ayrı naxçıvanlı əsgər və zabitlərin sovet vətəninin istiqlaliyyəti uğrunda faşist qoşunları ilə döyüşlərdə göstərdikləri bacarıq və igidlikləri öz səhifələrində kifayət qədər işıqlandıra bilmişdir”.

Əli Mirzəyevin “Qəzet və cəbhə ilə əlaqə” başlıqlı məqaləsi də qəzetin müharibə dövründəki fəaliyyətini əks etdirir. Müəllif yazır: “Qəzet öz oxucularına sovet xalqının alman-faşist işğalçılarına qarşı apardığı ölüm-dirim mübarizəsinin gedişindən, cəbhə epizodlarından, Naxçıvan zəhmətkeşlərinin fədakar əməyindən, ayrı-ayrı naxçıvanlı əsgər və zabitlərin vətənimizin istiqlaliyyəti, sovet xalqının azadlığı uğrunda alman-faşist işğalçılarına qarşı mübarizədə göstərdikləri igidlik və qəhrəmanlıqlardan ətraflı məlumat verir, arxa döyüşçülərini yeni-yeni əmək qəhrəmanlıqları göstərməyə ruhlandırırdı”.

Məqalədən aydın olur ki, qəzet müharibədə qəhrəmanlıq göstərən ayrı-ayrı döyüşçülər haqqında xeyli material-məqalə, oçerk, şeir və başqa yazılar dərc etmişdir. Diviziya komissarı Kazım İsmayılovun döyüşçü İslam Səfərlinin müharibə cəbhəsində göstərdiyi qəhrəmanlığı Zeynəddin kəndində yaşayan atası Əhməd Səfərova çatdırmaq üçün redaksiyaya etdiyi müraciət cavabsız qalmamış, redaksiya kənd sakinləri arasında məktubun oxunuşunu təşkil etmiş və məktub böyük sevincə səbəb olmuşdu. Redaksiya İslam Səfərlinin atası və kənd sakinləri adından cəbhəyə cavab məktubu təşkil etmiş və diviziya komissarı ilə bərabər, onların da məktubları qəzetdə dərc edilmişdi.

Qəzet xalq təsərrüfatının bütün sahələrində çalışan əmək adamları sırasında irəlidə gedənlərin sayının artmasına, qabaqcıl təcrübənin geniş yayılmasına, nöqsan və kəsir cəhətlərin kəskin tənqid edilərək aradan qaldırılmasına ciddi fikir verirdi. Qəzetdə “Cəbhəçilər briqadası yaradaq!”, “Qocalar, qadınlar və yeniyetmələr cəbhəyə gedənləri əvəz edək!”, “Hər şey cəbhə üçün, hər şey qələbə naminə!” rubrikaları altında çoxlu məktub, oçerk, zarisovka, şeir, felyeton və sair yazılar dərc olunmuşdu.

Akademik İsa Həbibbəyli məqalələrinin birində qəzetin müharibə dövründəki fəaliyyətini yüksək qiymətləndirərək yazır: “Böyük Vətən müharibəsinin meydana çıxardığı xüsusi çətinliklər dövründə “Şərq qapısı” qəzeti cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi regionda hər evin qapısını açmış, döyüş səngərlərinə belə gedib çata bilmişdir”.

Böyük Vətən müharibəsindən sonra mətbuatda əvvəlki illərlə müqayisədə dönüş nöqtəsi yaranmışdır. Müharibədən sonrakı quruculuq dövrü mətbuatın inkişafını stimullaşdıran qüvvəyə çevrilmişdir. Həmin dövrdə “Şərq qapısı” qəzeti ədəbi mühitlə yanaşı, xalq təsərrüfatının ayrı-ayrı sahələrindən təsirli yazılar vermişdir. O dövrdə redaksiyanın əsas heyətini fəhlə-kəndli müxbirlər təşkil etsə də, qəzet öz səviyyəsini və operativliyini qoruyub saxlaya bilmişdir. Dövrün sosial həyatda yaratdığı boşluq redaksiyanın fəaliyyətində qəzet çapının zəifliyi və klişelərin aşağı səviyyədə olması ilə yadda qalmışdır.

Bu müddət ərzində pedaqoji sahə diqqət mərkəzində saxlanılmış, “Məktəb həyatı”, “Valideynlər guşəsi” rubrikaları altında tərbiyə mövzusunda çoxlu məqalə və məktublar dərc edilmişdir.

Qəzetdə “Sadə adamlar haqqında hekayələr”, “Maraqlı xəbərlər”, “Bilirsinizmi?” başlığı altında tez-tez maraqlı məlumatlar verilmişdir.

Fəaliyyətinin bütün mərhələlərində tənqidi yazılara üstünlük verən “Şərq qapısı” qəzetində “Tənqid atəşi ilə”, “Düzü düz, əyrini əyri”, “Satira və yumor”, “Müxbirlərin gözü ilə, Molla Nəsrəddinin sözü ilə” rubrikaları altında cəmiyyətin bir çox nöqsanları ifşa edilmişdir.

Ümumilikdə, XX əsrin 60-cı illəri istər mətbuat, istərsə də ədəbiyyat sahəsində davamlı inkişafla yadda qalmışdır.

*(Ardı var)*

**Surə SEYİD**
*filologiya üzrə fəlsəfə doktoru*

Yurdumuzun nemətləri

# Dadlıdır, ləzzətlidir Ordubad meyvələri

## Bu sırada növbənöv əriklər xüsusi yer tutur



***Ordubad meyvələri tarixi mənbələrdə***

Ordubad rayonu bölgələrimiz içərisində bağlar diyarı kimi tanınıb. Burada yetişdirilən meyvə sortlarına həmişə yüksək qiymət verilib. Bununla bağlı "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində oxuyuruq: "Ordubad əriyi yüksək xüsusiyyətlərinə görə Cənubi Qafqazın ərik növləri içərisində ən üstün pillədə duran meyvə növü sayılırdı. Hər il orta hesabla Ordubaddan Tiflisə, oradan isə Ağstafa dəmir yolu vasitəsilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı. Sırf ərik ağacları ilə əhatə olunmuş torpaq sahələri iri sahibkarların əlində cəmləşdiyindən onlar böyük var-dövlət yiyəsi sayılırdılar. A.X.Pollovun hesablamalarına görə, bu cür ərik ağacları əkilmiş hər desyatin torpaq sahəsində 200 ortayaşlı ağac olurdu və bunların hərəsindən 600 pud məhsul götürürdülər. Ərik qurusunun hər pudu həmin ərazidə 50 qəpiyə satılırdı. Hər desyatin ərik bağından sahibkarlar 280 manat təmiz gəlir götürə bilirdilər...

Tarixi sənədlərdə bölgədə yetişdirilən 40 ərik növünün adı çəkilir. Bunların əksəriyyəti Ordubad əyalətinin Xanağa, Dəstə, Vənənd, Ağrı, Dizə, Düylün kəndlərində, xüsusən Vənəndçay sahillərində, eləcə də Naxçıvan ətrafında bağçılıq təsərrüfatlarında yetişdirilirdi. Təkcə Vənəndçay sahillərində özünün dadı və ətirliliyi ilə fərqlənən müxtəlif növ ərik bağları 15 desyatin bağı əhatə edirdi. Ordubad əyaləti ilə Naxçıvan rayonunda yazın əvvəli və yay aylarının müxtəlif vaxtlarında yetişən, öz dadı və ətri ilə seçilən "Əbutalibi", "Haqverdi", "Şalax", "Göycənabat", "Ağcanabat", "Badam-ərik", "Kəri-kəri", "Növrəstə", "Toxum-şeme", "Ağayi", "Balyarım", "Həbalı", "Hədci", "Kababı", "Xosrov şahı", "Ağərik", "Gilərik" kimi ərik növləri geniş yayılmışdı. O dövrün mənbələrində göstərilir ki, Karteliya və İrəvan quberniyasında keçirilən meyvəçilik sərgilərində Naxçıvan və Ordubaddan gətirilib nümayiş etdirilən meyvələrin misli görünməmişdir... 1866-cı ildə Ordubad şəhərindən 2 min pud ərik bazara çıxarılmışdı".

Dünyanın müxtəlif ölkələrində təşkil olunmuş sərgilərdə Ordubad meyvələri qızıl medallara layiq görülüb. Bölgədə bu sahə indi də inkişaf etdirilir. Hər bir ordubadlı bu genetik fondun qorunub saxlanmasını özünün vətəndaşlıq borcu sayır.

***Bu gün Ordubadda hansı ərik sortları yetişdirilir***

Bu yazıda bağlar diyarı Ordubad rayonunda yetişdirilən ən qiymətli ərik sortları haqqında söhbət açmağı qarşıya məqsəd qoymuşuq. Bununla əlaqədar olaraq rayonun yaşlı sakinləri, təcrübəli bağbanları ilə görüşdük. Təqaüdçü müəllim Südeyif Hacıyev, təcrübəli bağban Əbdül Haşımov, aqronom İsrafil Məmmədov, qocaman təsərrüfatçı İmran İbrahimov və başqaları Ordubadda ərik sortlarının çox olduğunu bildirdilər. Dedilər ki, bunlar adi ərik əsasında yaradılan sortlardır. Yerli ərik sortları şirin olduğuna görə ondan yemək, qurutmaq və müxtəlif konserv məmulatlarının hazırlanmasında istifadə olunur. Öyrəndik ki, onlardan biri "Ağ növrəstə"dir. Ordubadda yaradılmış bu sort hazırda muxtar respublikanın əksər yerlərində, o cümlədən Şərur rayonunun Çərçiboğan, Maxta, Dəmirçi, Babək rayonunun Zeynəddin, Şıxmahmud, Qoşadizə, Şəkərabad, Kəngərli rayonunun Xok, Qarabağlar, Xıncab və Şahtaxtı kəndlərində də yetişdirilir. Meyvəsi xırda, qabığı qalın, tüklü, ağ-sarımtıl, bir tərəfi çəhrayı olub, ləti ağ, şirin, ətirsizdir. Çəyirdəkdən çətin ayrılır. Toxumunun ləpəsi şirin və yeməlidir. Meyvələri iyul ayında yetişir. Bir ağacdan 175-200 kiloqram məhsul götürmək mümkündür.

Ordubadda daha çox yetişdirilən ərik sortlarından biri də "Haqverdi" növüdür. Çox qədimdən becərilən bu sort bölgənin Aza, Nüsnüs, Gənzə, Dəstə, Şərur rayonunun Kərimbəyli, Dərvişlər, Xanlıqlar, Babək rayonunun Kültəpə, Tumbul, Didivar kəndlərində geniş şəkildə əkilib-becərilir və inkişaf etdirilir. Ağacı girdəçətirli, yarpaqları böyükdür. Meyvəsi uzunsov, yumurta formalı olub, yan tərəfi yapıqdır. Bir meyvəsinin çəkisi 60-70 qramdır. Qabığı nazik, incətüklü, ağ rəngli, Günəş tutan tərəfi qırmızı olur. İyul ayında yetişir. Düzgün aqrotexniki qulluq göstərilən bir ağacdan 150-200 kiloqram məhsul götürmək olar. Kompot və şirələrin hazırlanması üçün sərfəlidir.

Ordubad rayonunda yetişdirilən ərik sortları içərisində "Ağcanabat"ın da öz yeri var. Ağacı hündürboylu, girdəçətirli, çox məhsuldar olub, meyvələri həddindən artıq şirin və xırdadır. Günəş tutan tərəfi çəhrayı, ləti çox şirin və dadlı olur. Ləpəsi şirindir. İyul ayının ikinci ongünlüyündə yetişir. Təzə halda yeyilir, qurudulur, ondan şəkərsiz cem bişirilir. Hər cür konserv məmulatı hazırlamaq üçün çox yararlı sortdur.

Ordubadla yanaşı, qədimdən muxtar respublikanın əksər ərazilərində yetişdirilən "Şalax" əriyi buradan Abşerona, oradan isə digər bölgələrə yayılmışdır. Buna baxmayaraq, Naxçıvanda becərilən bu ərik sortu Azərbaycanın digər bölgələrində becərilənlərdən özünün dadı, ətri, quraqlıq, istilik və şaxtaya davamlılığı, eyni zamanda xarici görünüşü ilə fərqlənir.

XIII əsrdən Naxçıvan Muxtar Respublikasında becərilən "Badamı" əriyinin də vətəni Ordubad rayonudur. Daha çox Əndəmic, Aza kəndlərində rast gəlmək olar. Hazırda Naxçıvan şəhərində, Şərur rayonunun Xanlıqlar, Dərvişlər, Babək rayonunun Vayxır, Sirab, Kültəpə kəndlərində də yetişdirilir. Ağacı iri və girdəçətirli olub, yarpaqları sıx, parlaqdır. Quraqlığa çox davamlıdır. Meyvəsi xırda, ovalşəkilli, ləti ağsarımtıl, zərif, çox şirin və ətirlidir. Çəyirdəyi lətdən asanlıqla ayrılır, ləpəsi şirin, yeməlidir. Qurudulmaq üçün çox yararlıdır. Ortayaşlı məhsul verən bir ağacdan 120-150 kiloqram məhsul götürülməsi mümkündür.

Ordubadda yetişdirilən, bu bölgədən müxtəlif ərazilərə yayılan ərik sortları barədə söhbətimizi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əsgər Həsənovla davam etdirdik. O, daha bir neçə ərik sortu haqqında məlumat verərək bildirdi ki, çox qədim zamanlardan Ordubad rayonunun əksər yerlərində becərilən ata-baba sortlarından biri "Hampa" əriyidir. Digər ərik sortlarından fərqli olaraq bu sortun yarpaqları və meyvəsi böyük olur. Bir meyvənin çəkisi 60-65 qrama çatır. Ləti bərk və şirin olub, çəyirdəkdən asanlıqla ayrılır, çəyirdəyin ləpəsi şirin olduğu üçün yeyilir. Meyvələri avqust ayının əvvəllərində yetişir, daşınma üçün davamlı olduğundan bu sort çox qiymətlidir. Ortayaşlı məhsul verən bir ağacdan 175-200 kiloqram məhsul götürmək mümkündür.

"Əbutalibi" əriyi də "Badamı" əriyi ilə yaşıddır. Rayonun Gənzə, Dəstə və Əndəmic kəndlərində daha çox rast gəlmək olar. Ağacının çətri girdə, geniş formada olub, meyvəsi uzunsovdur. Meyvəsinin Günəş tutan tərəfi narıncı rəngdədir. Ləti açıqsarı, sulu və bərkdir. İyulun axırında yetişir, daşınma üçün davamlı olduğundan istehlak müddəti o biri sortlara nisbətən xeyli çoxdur. Qeyd edək ki, bu ərik 1898-ci ildə Kaliforniyada təşkil olunmuş meyvəçilik sərgisində birinci yerə layiq görülüb.

"Balyarım" adlanan ərik sortuna bəzən "Ağ təbərzə" də deyirlər. Çox qədim zamanlardan Ordubad rayonunun əksər kəndlərində yetişdirilir. İlin elə bir fəsli olmaz ki, Naxçıvan bazarında "Balyarım" ərik sortunun quru meyvəsinə rast gəlinməsin. Meyvəsi orta irilikdə olub, oval şəklində, saplaq tərəfi bir qədər enlidir. Qabığı qalın və parlaqdır. Tünd ağsarı rəngdədir. Ləti ağ, kövrək, şirəli və çox şirindir. Ləpəsi şirindir, çəyirdəyi lətindən yaxşı ayrılır. Ortayaşlı məhsul verən bir ağacdan 70-100 kiloqram məhsul götürülməsi mümkündür.

* * *

Güclü təsərrüfatçılıq ənənələri, qabaqcıl meyvəçilik təcrübəsi yaradılmış Ordubad rayonunda tarixən yetişdirilən, ölkəmizin müxtəlif bölgələrinə yayılan, dünya sərgilərində iştirak edən ərik sortlarının bərpası, yaşadılması bu gün vətənpərvərlik işinə çevrilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş vəzifələrin uğurla yerinə yetirilməsinin bariz ifadəsidir.

**Muxtar MƏMMƏDOV**

*İsti yay günlərindən birində yolum Şahbuz rayonunun eyniadlı kəndindən düşür. Eşitdiyimə görə, ağac şivlərindən müxtəlif əşyalar hörən Həsən Sadiqov burada yaşayır.*

El sənətini yaşadanlar

# Ağac deyib keçmə...



Kənd sakinlərindən soraqlayıb onun evini axarlı-baxarlı evlər arasında tapıram. "Ay ev yiyəsi" deyə çağırdığımda evdən bəstəboy, gülərüz bir kişi çıxır, – xoş gəlmisiz, buyurun, həyətə keçin, – deyir. Əslində, bizi elə ilk təklifdə həyətə keçməyə ürəkləndirən Həsən dayı yox, onun həyətinin balaca, qonaqların üzünə səmimiyyətlə açılmış qapısı olur. Çünki bu qapı əsl kənd həyəti qapısıdır. Nə üzərində zirehi olan darvazaya bənzəyir, nə də indi şəhər yerlərində dəbdə olan, qonağa gəl yox, get deyən seyf qapıları adlanan darvazalara.

Həsən dayı ilə salamlaşıb içəri giririk. Çox keçmir ki, evin xanımı da bizə "xoş gəldin" edir, həyətdəki balaca masanın üzərinə çay stəkanları, qaragat mürəbbəsi qoyulur, elə söhbətimizə də bu süfrə arxasında davam edirik:

*– Həsən dayı, ağac şivlərindən, kollardan müxtəlif əşyalar düzəltməyə maraq necə yaranıb? Nə vaxtdan bu işlə məşğul olursunuz?*

– Mənim əsl müəllimim təbiət, ağaclar, kollar, güllər, çiçəklər olub. Uşaq vaxtından ana təbiətin vurğunuyam. Hələ balaca vaxtlarımda dədə-babalarımızın ağaclardan köməyimizə gələn alətlər düzəltdiyinin şahidi olmuşam. İndiki vaxta baxma, o zaman insanların elə imkanları olmayıb ki, dükana girib istədiklərini alsınlar. Ona görə də ana təbiətin bizə verdiklərindən istifadə etməli olmuşuq. Mən hələ uşaqkən dərətəpələrdə kol-kosa ilişib büdrəyəndə ağlıma da gəlməyib ki, bir gün onlardan nəsə düzəldəcəyəm.

Hələ məktəb illərində həyətimizdəki armud ağacında bülbül yuva salmışdı. Bir dəfə necə oldusa, bülbülün yuvası yerə düşdü. Mən onu alıb yerinə qoymaq istərkən bir az diqqət etdim. Gördüm ki, balaca bir quş çubuqlardan yuva düzəldəndə nə qədər sənətkarlıq işlədib, nə qədər diqqətlə hər bir çöpü hörüb yerinə qoyub. Bu, məni çox heyrətləndirmişdi və elə o vaxtdan da yavaş-yavaş ağac şivlərindən əşyalar hörməyə başladım. Əvvəllər bunda çox da bacarıqlı olduğumu deyə bilmərəm, ancaq zaman hər şeyi öz yerinə qoydu. Düşünürəm ki, təbiətdən hələ çox şeylər öyrənə bilərik. Onun gizli sirləri çoxdur. Məsələn, ağır bir yükə və gərginliyə davam gətirən bir tor düzəltmək istəyirsinizsə, qalın-qalın kitablara gərək yoxdur. Lap əliniz çatan yerdə hörümçəyin qurduğu tora baxsanız, nə qədər mükəmməl olduğunu görəcəksiniz.

*– Bu əşyaları düzəldəndə hansı ağac və kollara üstünlük verirsiniz?*

– Bu əşyaları düzəldərkən, əsasən, cavan söyüd şivindən, son dərəcə elastikliyi ilə seçilən həmərsin və gərməşov çubuqlarından istifadə etməklə səbət, cürə səbət, arı səbəti, çəpərə, cəvərə hazırlayıram. Əhali arasında "ilqarı" adlanan koldan hazırlanan çalqu, süpürgə isə öz möhkəmliyi ilə seçilir. Çəpərə oval şəklində olur. Ondan çörəkyapmada və sulamada istifadə edilir. Çörək yaparkən quru çubuqlardan ibarət olan çəpərənin üzərinə örtük çəkilir, içinə saman doldurulur. Xəmir onun üzərinə yayılır və təndirin divarına yapışdırılır. Cəvərə isə ləyən, teşt şəklində olur, ondan bir əşyanın başqa yerə daşınmasında istifadə edilir. Səbət hazırladığım zaman qalın çubuqları eyni boyda kəsib onları 20 santimetrdən bir yerə basdırır, nazik civirlərlə (şivlərlə) aralarını hörməyə başlayıram. Hörmə başa çatdıqdan sonra səbətin yerə batan tərəfini çıxarıb, artıq qalan ucları isidib qatlayıram, beləcə səbət hazır olur. Arı səbətlərinin də öz toxunma texnikası var. Arı səbətinin toxunma üsulu eyni olsa da, elə hörməlisən ki, səbət konusvarı alınsın və əvvəlcədən hazırlanan arxa qapağa uyğun olsun. Ön tərəfdə arılar üçün uçuş bacası qoyulur. Sonra hörülmüş səbətin üzəri suvanır. Onu da deyim ki, arı səbəti hazırlayanda gərməşov kolunun çubuqlarına üstünlük verirəm. Çünki gərməşov çubuğu həm ətri ilə arıları cəlb edir, həm də arıları xəstələnməyə qoymur. Əbəs yerə demirlər ki, gərməşov dəri-zöhrəvi xəstəliklərinin birinci dərmanıdır.

*– Düzəltdiyiniz əşyalara tələbat varmı?*

– Açığını deyim ki, tələbat çox azdır. Hər kəs plastikdən hazırlanmış əşyalara can atır. Çünki insanlar bu əşyaların nə qədər dözümlü və xeyirli olmasından xəbərdar deyillər. Məsələn, düzəltdiyim səbətdə ilboyu meyvə məhsulu xarab olmadan qala bilər. Ancaq plastik vedrədə onun ömrü ən çox bir həftədir. İndi ancaq dost-tanış mənə bu əşyaları düzəltmək üçün xahiş edir və mən də imkan daxilində düzəldirəm. İstəmirəm ki, bu əşyalar məişətimizdən çıxsın, unudulsun. Arada uşaqları bu işə həvəsləndirirəm. İnanıram ki, onlar arasından bu işlə məşğul olanlar çıxacaq, hörmə sənəti də unudulmayacaq.

**Səbuhi HÜSEYNOV**

# Aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada sosial proqramlar genişləndirilir, əhalinin sosial müdafiəsi daha da gücləndirilir. Aztəminatlı ailələrlə görüşlərin keçirilməsi də həmin ailələrin sosial müdafiəsini yaxşılaşdırmaq məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən aldığımız məlumata görə, Babək rayonunun Sirab kəndində yaşayan çoxuşaqlı aztəminatlı Quliyevlər ailəsinə baş çəkilib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ailənin yaşayış şəraiti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçirib, onlara məişət əşyası və ərzaq payı verilib.

Sonda ailənin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 530